*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 aprel 2018-ci il № 32 (2248) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın ölkələrdir, ən yaxın müttəfiqlərdir

Azərbaycan və Türkiyə Respublikaları arasında ikitərəfli əməkdaşlıq tarixən yüksək sayğı və ehtiramla davam etdirilib, indi də davam etdirilir. Bu əməkdaşlıq ulu öndər Heydər Əliyevin dediyi "Bir millət, iki dövlət" kəlamının yaşarılığı, əbədiliyi deməkdir. Aprelin 25-də keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası da hər iki tərəfin bu müdrik kəlama əsaslanan ikitərəfli əməkdaşlığa nə səviyyədə önəm verildiyinin təsdiqidir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında qardaşlıq əlaqələrinin real layihələrlə daha da gücləndiriləcəyinə əminliyini bildirərək qeyd edib ki, bundan sonra da "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimiz" olacaq:

- Biz tariximiz, soyumuz, mədəniyyətimiz bir olan iki dövlətik. Qafqaz İslam Ordusu yüz il əvvəl qardaşlarını zülmdən xilas etmək üçün Azərbaycana gedərkən bu düşüncə ilə hərəkət edib. Qafqaz İslam Ordusunun 1918-ci ildə apardığı və Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında da rol oynayan mübarizəsi bugünkü Azərbaycan müstəqilliyinin təməlinin atılmasında da töhfə verib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, Qarabağ problemini həmişə öz problemimiz, orada yaşayan faciələri öz faciəmiz hesab edirik. "Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində təcili həlli ən böyük arzumuzdur". Bu fikirlər Azərbaycanın xarici siyasətinə verilən yüksək mənəvi dəstəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışında Azərbaycanın ən böyük probleminin - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli işində Türkiyənin həmişə yanımızda olmasını, terrora qarşı mübarizədə, "Zeytun budağı" əməliyyatının aparılmasında Azərbaycan dövlətinin və xalqının birmənalı şəkildə Türkiyənin yanında olduğunu qeyd edib.

- Bu qarşılıqlı dəstək və bu qədər güclü iş birliyi ölkələrimizi gücləndirir və bölgədə yeni vəziyyət yaradır. Bu gün Türkiyə-



Azərbaycan əlaqələri ikitərəfli formatdan çıxıb, artıq regional məna daşıyır və dünya miqyasında gedən proseslərə də çox uğurla təsir göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasının Protokolu"nu imzalayıblar.

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu, Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumu imzalanıb.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair Protokol"u Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar imzalayıblar.

Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan aprelin 11-də keçirilmiş və səs çoxluğu ilə qələbə qazandığına, prezident seçkilərindən sonra ilk səfərini Türkiyəyə etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirərək bir daha qeyd edib ki, bu iki dövlət mənən, ruhən birdir, biri digərinə bütün məsələlərdə güclü dəstəkdir:

-Dağlıq Qarabağ məsələsini lap əvvəllərdən öz problemimiz olaraq qəbul etdik. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində təcili həlli ən böyük arzumuzdur. Bu məsələdə Azərbaycana verdiyimiz dəstəyi bundan sonra da qətiyyətlə davam etdirəcəyik. Hərbi və müdafiə sənayesi sahələrindəki əməkdaşlığımızı da gücləndirməkdə qərarlıyıq.

Azərbaycanın haqq işinə, ədalətin bərpasına dünyanın iri dövlətlərinin hamısının münasibəti eyni deyil. İkili standartlar bu münaqişənin həllini ləngidir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu bəyanatı, müəyyən mənada, o dövlətlərə də ünvanlanıb, bu bəyanat həm də sülhün, əmin-amanlığın tərəfdarı olmağa çağırış kimi qəbul edilməlidir, yəni, beynəlxalq miqyasda terrorla mübarizədə Türkiyə modelinə istinad edilməsi dünyada sülhün bərqərar olmasına şərait yarada bilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatında onu prezident seçkilərində qazandığı qələbə münasibətilə ilk təbrik edən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatında deyib:

- Biz bütün məsələlərdə bir yerdəyik. Mən qeyd etdiyim kimi, bu gün dünya çapında ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Həm etnik köklər, mədəniyyət, tarix və həm də ortaq maraqlar baxımından da biz daim bir yerdəyik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində Türkiyə qədər bizə dəstək verən ikinci ölkə olmamışdır. Türkiyə hər zaman bizimlə bərabərdir, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Bu dəstək və həmyerlik bizə əlavə güc verir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında ədalətli həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatında müdafiə sahəsində birgə hərbi təlimlər keçirilməsindən, ordumuzun ehtiyacının həm də Türkiyədə istehsal olunan hərbi məhsullar hesabına təmin olunmasında, Azərbaycan Cümhuriyyətinin 100 illiyini, Qafqaz İslam Ordusunun Azərbaycan Xalq Cümhuriyyətinin Ordusu ilə birlikdə Bakını erməni quldur dəstələrindən azad etməsini birlikdə qeyd edəcəyik. Bu, şanlı tariximizdir.

Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası, iclasda hər iki dövlət başçısının dediyi fikirlər Azərbaycanla Türkiyə arasında ikitərəfli əməkdaşlığın təkcə dövlətlərarası münasibət olmadığının, etibarlı tarixi köklərin, milli-xəlqi dəyərlərin ortaqlığından bəhrələnildiyinin təsdiqidir.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# “Əsgərlərimizin döyüş hazırlığı yüksəkdir”



***2016**-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində düşmən, həmişə olduğu kimi, atəşkəs rejimini pozdu. Bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri güclü artilleriya atəşinə məruz qaldı. Azərbaycan Ordusu doğma torpaqlarını müdafiə etmək məqsədilə uğurlu əks-hücum əməliyyatı həyata keçirdi və düşmənə sarsıdıcı zərbələr endirdi. Əməliyyat nəticəsində minlərlə hektar Azərbaycan torpağı işğalçılardan azad olundu. Bu bir daha göstərdi ki, Azərbaycan Ordusunun qarşısında heç bir güc dayana bilməz.*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası var. Nizami ordumuz regionda ən güclü orduya və xalqın güvənc yerinə çevrilib. Azərbaycan qüdrətli ordusunun hesabına itirilmiş torpaqları ilə yanaşı, tarixi torpaqlarını da geri qaytaracaq. Zəngin hərbi tarixə malik Azərbaycan xalqı öz ordusunun əzm və qüdrətinə arxalanaraq dövlət quruculuğu yollarında daha inamla addımlayacaq və yeni zəfərlər qazanacaq.

Silah-sursat və texnikalarımızdan savayı, şəxsi heyətimizin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu olduqca yüksək səviyyədədir. Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində əsgərlərimizlə keçirilən döyüş hazırlığı məşğələsinin şahidi oldum. Baş leytenant Mirizzət Cavadov şəxsi heyətə "Manqa hücumda" məşğələsi üzrə nəzəri bilikləri çatdırırdı: "Hücum, taktiki fəaliyyətin əsas növlərindən biri olaraq düşməni darmadağın etmək, təyin olunmuş obyekti ələ keçirmək və sonrakı fəaliyyətlərin aparılması üçün şərait yaratmaq məqsədi ilə aparılır. Manqanın hücumunu həyata keçirərkən şəxsi heyət zəncirvari açılışı, uzanaraq irəliləməni, sıçramalarla irəli atılmanı, qrup şəklində manevrlərlə düşmən üzərinə getməni və digər praktiki hərəkətləri kompleks şəklində həyata keçirməyi bacarmalıdır. Bu hərəkətlər sinxron olaraq bir-birini tamamlamalıdır.

Şəxsi heyət baş leytenant M.Cavadovun "Döyüşə" komandasını yüksək səslə "Oldu" cavablandıraraq irəli atıldı. Sanki qarşılarında bir düşmən dayanırmış kimi çox ehtiyatla hərəkət edirdilər. Mənzərəni seyr etdikcə özümü lap döyüş meydanındaymış kimi hiss etdim. Bir daha əmin oldum ki, məşğələlərdə, təlimlərdə, döyüş meydanlarında təcrübə qazanan Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etməyə qadirdi. Günün nizam qaydasına uyğun olaraq, başa çatan dərs prosesindən sonra ilk həmsöhbətim məşğələ rəhbəri baş leytenant Mirizzət Cavadov oldu.

Söhbət əsnasında aprel döyüşlərinin iştirakçısı olan zabit həmin günləri xatırlayaraq bildirdi ki, döyüşlər zamanı nəinki düşmən hücumunun qarşısını aldıq, eyni zamanda əks-hücum əməliyyatı həyata keçirərək torpaqlarımızın bir qisminin ermənilərdən azad olunmasına nail olduq. "Talış yüksəkliyi ətrafındakı torpaqlarımızı, mühüm əhəmiyyətə malik "Lələtəpə" yüksəkliyini düşməndən təmizlədik. Bu əməliyyat nəticəsində ətraf rayonlarımızın da təhlükəsizliyini təmin etdik. Düşmən anladı ki, Azərbaycan Ordusu 90-cı illərin ordusu deyil. Başa düşdülər ki, ordumuz düşmən hücumlarının qarşısını almağa da, əks-hücum əməliyyatı həyata keçirib Ermənistan ordusunu məğlub etməyə də hazırdı. Biz irəlilədikcə onlar geri çəkilirdilər. Qaçmaqdan başqa çarələri qalmamışdı. Aprel zəfərindən sonra hiyləgər düşmənlərimiz özlərinə gələ bilmirdilər. Hər an qorxu içində idilər ki, yenilməz Azərbaycan Ordusu doğma torpaqlarını geri qaytarmaq iqtidarındadı. İnanırıq ki, tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə Azərbaycan Ordusu yenidən torpaqlarımıza sahib olacaq və düşməndən qisasını alacaq".

"Əsgərlərimizin həm mənəvi-psixoloji, həm fiziki, həm də döyüş hazırlığı səviyyəsinin yüksək olması üçün əlimizdən gələni edirik", - deyə zabit Mirizzət Cavadov sözünə davam etdi. Aprel döyüşləri zamanı əsgərimizin gözlərində qorxu hiss olunmurdu. Döyüş meydanında qəhrəmanlıq, şücaət göstərirdilər. Ermənilər gördülər ki, illərdir doğma torpaqlarının həsrətini çəkən Azərbaycan əsgəri gəlir, çarəsiz qalıb qaçdılar. Döyüşlər zamanı bütün dünya şahid oldu ki, Azərbaycan əsgəri doğma torpaqlarına qeri qaytarmaq üçün qarşısına çıxan hər bir maneəni məhv etməyə hazırdır. Aprel döyüşləri sübut etdi ki, Azərbaycan əsgərinin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı yüksək səviyyədədi. Şəxsi heyətin də düşüncələrini öyrənmək istədim.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Cəsarət Haqverdiyev bildirdi ki, "Azərbaycan Ordusu aprel döyüşlərindəki kimi gələcək döyüşlərdə də erməniləri məhv edəcək və onları bizim əzəli torpaqlarımızdan qovub çıxaracaqdır. "Bunu yalnız ermənilər yox, bütün dünya bilməlidir. Anlamalıdılar ki, Azərbaycan Ordusu tez bir zamanda ərazi bütövlüyünü təmin edəcəkdir. Yenidən düşmənlərimiz tərəfindən xarabalığa çevrilmiş yurdlarımız abadlaşacaq, yenidən toy-bayram səsləri eşidiləcəkdir".

- Hərbi xidmətə Bakı şəhərindən çağırılmışam, - deyə əsgər Həzrət Rəhimov söhbətimizə qoşuldu. - Xidmətə başlamazdan əvvəl çox həyəcanlı idim. Düşünürdüm ki, hərbi vərdişlərə yiyələnə biləcəyəm, ya yox. Artıq peşəkar komandirlərimizin kömək və dəstəyi ilə hərbi sirlərə dərindən yiyələnmişəm. Bizlərə göstərilən diqqət və qayğının qarşısında xidmətimizi düzgün təşkil etməliyik. Döyüş, fiziki, mənəvi-psixoloji hazırlıqlarımızı yüksəltmək məqsədimiz, Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə torpaqlarımızı işğaldan azad etmək isə amalımızdır.

Əslən Kürdəmir rayonundan olan əsgər Novruz Səfərli hərbi hissədə yaradılan şəraitdən söz açır. "Məişət şəraitimiz, sosial təminatımız olduqca yüksəkdir. Heç nədən korluq çəkmirik. Hərbi hissənin ərazisində quraşdırılan taksafon vasitəsi ilə doğmalarımızla əlaqə saxlaya bilirik. Hər gün televiziya proqramlarını seyr edirik. Gümrah qalmaq üçün burada idman şəhərciyi də salınıb. Dadlı və keyfiyyətli yeməklərlə qidalanırıq. Bunlarla yanaşı, komandirlərimiz də bizə doğma münasibət bəsləyir, qayğımıza qalır, problemlərimizlə maraqlanırlar. Belə şəraitdə xidmət etmək hər birimizə ruh yüksəkliyi aşılayır. Keçirilən dərslərdə fəal iştirak edir, var qüvvəmizlə çalışırıq ki, hərbi biliklərə dərindən yiyələnib, gələcək döyüşlərdə düşmən üzərində Qələbə əldə edək".

- Mənim tək bir arzum var: Laçın rayonu ərazisində yerləşən Ağbulaq şəlaləsinin yanında dayanıb, o gözəl torpağın təravətini duyum, o gözəl mənzərəni şəkillərdən yox, canlı olaraq günlərcə seyr edim. Əlbəttə, yalnız Laçının deyil, Şuşanın, Kəlbəcərin, Xocalının və digər işğalda olan torpaqlarımızın gözəlliklərinə tamaşa edim. Mən və mənim kimi digər əsgər qardaşlarım da inanırıq ki, tez bir zamanda Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə Azərbaycan xalqı o gözəl məmləkətinə geri qayıdacaqdır, - bu sözləri isə əsgər Kənan Nəsibov bildirdi.

Əsgərlər Ramazan Məmmədov, Elgün Nəsibli, Vüsal Quliyev və digərlərinin də dediklərini xalqın istəyi bilirəm: tez bir zamanda Ali Baş Komandanımızın əmri ilə azad edəcəyimiz Qarabağ torpağında görüşəcəyik.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Hərbi birliyin “Ən yaxşı mühəndis-istehkam manqası” adı uğrunda yarış keçirilib



*2018-ci il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun hərbi birliklərindən birində "Ən yaxşı mühəndis-istehkam manqası" adı uğrunda yarış keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mürəkkəb əməliyyat şəraitində hərbi əməliyyatın mühəndis təminatının yerinə yetirilməsi məqsədilə təşkil olunan yarış xüsusi təchiz edilmiş təlim poligonunda keçirilib. Yarış zamanı şəxsi heyət mühəndis təminatı üzrə tapşırıqları icra edib.



Yekun nəticələrə görə qaliblər müəyyən edilib və mükafatlandırılıb.

AZƏRBAYCAN ORDUSU



*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri"



*Müdafiə Nazirliyinin rəhbərliyi dövlətin müharibə şəraitində olmasını nəzərə alaraq ordunun gücünün, kadrların hərbi peşəkarlığının artırılmasını və hərbi qüdrətinin yüksəldilməsini daim diqqət mərkəzində saxlayır. Beynəlxalq hərbi təşkilatlarla sıx və səmərəli əməkdaşlıq da tələb edir ki, ordu quruculuğu prosesi sürətli və günün tələbinə uyğun aparılsın.*

Ordu quruculuğunun əsas yükü peşəkar, müasir dünyagörüşlü və savadlı zabit heyətinin üzərinə düşür. Bu gün şəxsi heyətimizin döyüş və mənəvi-psixoloji ruhunun artırılması da bilavasitə zabitlərdən asılıdır. Ona görə də hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin təkmilləşdirilməsi, eləcə də hərbi intizamın daha da möhkəmləndirilməsi üzrə qabaqcıl təcrübənin təbliği məqsədilə hər il qoşun növləri, birlik, birləşmə, əlahiddə hərbi hissələrdə və xüsusi təyinatlı təhsil müəssisələrində "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsi təşkil olunur.

Azərbaycan Ordusunun 2018-ci il üçün hazırlıq planına əsasən, bu il də qoşun növləri, birlik, birləşmə, əlahiddə hərbi hissələrdə və xüsusi təyinatlı təhsil müəssisələrində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, bölmələr arasında yarışma ruhunun və sağlam rəqabətin gücləndirilməsi, hərbi qulluqçuların asudə vaxtının səmərəli keçirilməsinin təşkili məqsədilə "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsi keçirildi. Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə və qüvvədə olan təlimatlara uyğun olaraq keçirilən müsabiqəyə bu günlərdə yekun vuruldu.

Müsabiqənin yekununda Azərbaycan Ordusu üzrə birinci yerə kapitan Ravil Əzim oğlu Qəniyev, ikinci yerə leytenant Səxavət Yaqub oğlu Abbasov, üçüncü yerə baş leytenant Fəzail Əlimurad oğlu Əliyev layiq görüldülər.

Yarışdan sonra qaliblərlə görüşüb söhbət etmək imkanı qazanırıq. Birinci yerin sahibi kapitan Ravil Qəniyev bildirdi ki, ictimai-siyasi hazırlıq ümumi hərbi hazırlığın spesifik bir sahəsidir: "İctimai-siyasi hazırlığı yüksək səviyyədə təşkil edə bilmək üçün zabit dövlətimizin siyasi kursunu aşılamağı, ölkə rəhbərliyinin fəaliyyətini əsgərlərə düzgün təbliğ etməyi bacarmalıdır. Vətənə sevgi, düşmənə nifrət hissini formalaşdırmaq üçün vətənpərvərlik şüurunu oyatmaq tələb olunur. Bunun üçün tarixi və siyasi mövzularda mütəmadi olaraq söhbətlər təşkil edilməlidir".




"Əldə etdiyimiz nailiyyət gərgin zəhmətin hesabına başa gəlir", - deyə leytenant Səxavət Abbasov söhbətə qoşuldu. - Zəhmət çəkməklə yanaşı, şəxsi heyəti düzgün istiqamətləndirməyi də bacarmalısan. Ona görə də bizim fəaliyyətimizin ana xəttində vətənpərvərlik təbliğatı dayanır. Əsgərlərimizə hər addımda vətənpərvərlik və döyüş ruhu aşılayırıq. İgidlik göstərən, Vətən üçün şirin canından keçən qəhrəmanlarımızın da təbliğ olunması əsgərlərin vətənpərvər ruhda tərbiyəsində əvəzsiz rol oynayır. Vətəni sevən hər bir əsgər müstəqilliyin nə olduğunu dərk etməli, onu qorumağı bacarmalıdır. Vətən borcu, Vətən sevgisi hər kəsin ürəyində kök salmalıdır".

"Bu gün hər bir əsgər yaxşı bilir ki, ordumuz varlığımız deməkdir, bu sarsılmaz qüvvə, sözün əsl mənasında, xalqın gücüdür, xalqımızın minlərlə mərd və qəhrəman oğullarını sıralarında birləşdirən yumruqdur. Həyatda hər şeydən əziz olan ana Vətənlə bağlı istənilən tapşırıq əsgərlərimiz üçün ən şərəfli və ülvi vəzifədir", - deyə baş leytenant Fəzail Əliyev bildirdi.

Hər üç hərbi qulluqçu onu da qeyd etdilər ki, zəhmət hesabına qazanılan bu uğur son uğurları olmayacaq. Bu uğuru növbəti uğurlar əvəzləyəcək. Nəticədə Azərbaycan Ordusu döyüş meydanını qələbə ilə tərk edəcək. Ali Baş Komandanımızın rəhbərliyi ilə döyüş meydanında qazanılacaq uğura çox az qalıb.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Əsgərin tribunası*

# "Biz qalib gələcəyik"

*Heç zaman güman etməzdik ki, torpaqlarımızda yer verdiyimiz, süfrəmizi bölüşdüyümüz, qonşu hesab etdiyimiz ermənilər Azərbaycan torpaqlarına qəsd edəcək, xalqımızın sevincinə kədər qatacaq. Kim güman edərdi ki, Şuşanın, Xankəndinin, Ağdamın, Xocalının... küçələrində silahlar işə düşəcək, analarımız, bacılarımız gözüyaşlı qalacaq. Bu əməlin bir adı var - xəyanət!*

Xəyanət isə bağışlanmır. Dövlət müstəqilliyinin qarantı olan Azərbaycan Ordusu, ordunun döyünən ürəyi olan Azərbaycan əsgəri xalqımıza qarşı törədilən xəyanəti bağışlamayacaq, torpaqlarımıza uzanan əlləri kəsib atacaq. Bu orduda torpaqlarının azadlığı uğrunda canı və qanı bahasına mübarizə aparmağa hazır olan, şəhidlərinin ruhunu hər zaman uca tutan, Vətənin bütövlüyü uğrunda mübarizədə əvəzsiz rol oynayan qəhrəman Azərbaycan oğulları çoxdu. Mübarizlərimizin, Fəridlərimizin, Çingizlərimizin... davamçıları kimi imkan vermərik ki, Vətənimizin, xalqımızın şərəfi tapdaqlar altında qalsın.

Xalqımız haqlı olaraq, Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə güvənir. Bu güvən bizə ruh verir, düşmənlə amansız mübarizə aparmağa yardımçı olur. Bu ordu apreldə bənzəri görünməyən qəhrəmanlıqlar nümayiş etdirdi, ona olan güvənin haqlı olduğunu sübut etdi. Sübut etdi ki, Azərbaycan əsgəri Ali Baş Komandanımızın rəhbərliyi altında tarixi torpaqlarımızı tezliklə işğaldan azad edəcək, xəyanətin bədəlini düşmənə ödətdirəcək.

Düşmən yaxşı bilir ki, bizlər Vətənsiz yaşaya bilmərik. Kökünə, soyuna bağlı olan bir xalqın oğulları üçrəngli bayrağını Şuşada, Xankəndidə və tarixi torpaqlarda dalğalandırmayınca sakit dayanmayacaq. Çünki Qarabağ məsələsi bizim üçün həyati əhəmiyyətli məsələdir.

Bu gün mən torpaqlarımızın keşiyində dayanan, komandirlərimizin əmr və tapşırıqlarını olduğu kimi yerinə yetirən, xalqımızın iradəsinə, dəyərinə hörmətlə yanaşan, şəhidlərimizin ruhu qarşısında özünü borclu hesab edən, işıqlı hədəflərə çatmaq üçün əzmli, mətanətli bir Azərbaycan əsgəriyəm. Hər birimiz əminik ki, müharibə tezliklə arzusunda olduğumuz Qələbə ilə sona çatacaq, torpaqlarımız geri alınacaq, bax, yalnız onda biz şəhidlərimizin ruhu qarşısında öz borcumuzu yerinə yetirmiş olacağıq. Ona görə də bu gün Azərbaycan əsgərinin bir amalı var - xalqımızın arzusunun reallaşması, Böyük Qələbənin tezləşməsi!



**Əsgər**
**Kənan HƏSƏNOV,**
**"N" hərbi hissəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***26 aprel 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 102 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***27 aprel 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 90 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqedzor kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şıxlar, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Seyidli, Sarıcalı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi qulluqçular Gəncədə Mir Cəlal Paşayev muzeyini ziyarət ediblər

*Ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, əlahiddə hərbi hissələrdə və xüsusi təyinatlı təhsil müəssisələrində görkəmli alim, pedaqoq və istedadlı yazıçı Mir Cəlal Paşayevin anadan olmasının 110 illiyi ilə əlaqədar silsilə tədbirlər həyata keçirilir.*





Əməkdar Elm xadimi, filologiya elmləri doktoru, professor Mir Cəlal Paşayevin ad günündə - 26 aprel tarixində Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Gəncə şəhərində Mir Cəlal Paşayev muzeyində olub və unudulmaz böyük sənətkarı hörmət və ehtiramla yad ediblər.

Muzeyin direktoru İradə İbayeva muzeyin ekspozisiyası, burada nümayiş etdirilən fotolar, sənədlər, kitablar, sənət nümunələri və xatirə əşyaları haqqında geniş məlumat verib. Hərbi qulluqçuların nəzərinə çatdırılıb ki, Mir Cəlal Paşayev 1908-ci ilin aprelində, Cənubi Azərbaycanda, Təbriz yaxınlığındakı Əndəbil kəndində doğulsa da, ailəsinin Gəncəyə köçməsi ilə bağlı taleyini uşaqlıqdan bu şəhərlə bağlayıb. Onun formalaşmasında Gəncə mühitinin müstəsna rolu olub.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Mir Cəlal Paşayevin yaradıcılığında müharibə və qəhrəmanlıq ənənələri barədə geniş söhbət açıb. O qeyd edib ki, Böyük Vətən müharibəsinin ilk günlərində digər yaradıcı ziyalılarımız kimi Mir Cəlal da öz qələmini süngüyə çevirib və xalqı faşizmə qarşı mübarizəyə səsləyən bir çox əsərlərlə müharibə dövrü ədəbiyyatımızı zənginləşdirib.

O, dəfələrlə cəbhələrdə döyüşən Vətən oğulları ilə görüşüb, onların problem və qayğıları ilə maraqlanıb və obrazlarını yaradıb. Mir Cəlalın müharibə illərində yazdığı "Yollar", "Qardaş qanı", "Şərbət", "Odlu mahnılar", "Atlı", "Mərcan nənə", "Vətən yaraları" hekayələri, eləcə də iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov haqqında yazdığı silsilə oçerklər bu gün də gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir.

A.Qurbani vurğulayıb ki, xalq şairi Səməd Vurğun "Vətən müharibəsi və ədəbiyyatımız" adlı geniş məruzəsində digər şair və yazıçılarımızla yanaşı Mir Cəlalın hekayələrinin də adını iftixarla çəkmişdir. O yazırdı ki, Mir Cəlalın "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum.

Mir Cəlal bu gün də müasirdir və onun əsərləri Azərbaycan əsgərinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsində, düşmənə nifrət hissinin aşılanmasında öz aktuallığını qoruyub saxlamaqdadır.

Sonra hərbi qulluqçular muzey kompleksində Mir Cəlal Tədqiqat-Araşdırma Mərkəzi və onun yaşadığı məhəllə ilə tanış olublar.

Hərbi qulluqçulardan Xəyal Namazov, Orxan Bələdov və Tahirə Hüseynova Mir Cəlal Paşayevin mütaliə etdikləri əsərləri barədə fikirlərini bölüşüblər.

Tədbirin sonunda muzey tərəfindən hərbi hissənin kitabxanasına Mir Cəlal Paşayevin kitabları hədiyyə edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Xalqımızı Qarabağımıza qovuşduracağıq"

Yurdunu, elini, obasını qoruyan oğullarımızın hesabına Vətənimiz hər zaman var olub, qorunub. Bu gün isə torpaqlarımızın 20 faizinin işğalda olması bizi narahat etməyə bilməz. Vətəni qorumağı amalına çevirən oğullarımız - Azərbaycan Ordusunun şərəfli zabit və əsgərləri var.

Belə zabitlərimizdən biri də leytenant Fuad Səfizadədi. Beyləqan rayonunun Bahar qəsəbəsində anadan olan zabit erkən çağlarından həm çətin, həm də şərəfli bir yol seçib. Orta məktəbi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alan F.Səfizadə bu gün bütün varlığı ilə Vətənə xidmət edənlərin sırasındadı.

Zabitin sözlərinə görə, ön xətdə, zirvədə xidmət etmək həyatının, fəaliyyətinin ən yüksək zirvəsidir: "Mənə elə gəlir ki, Tanrı əlimdən tutub arzularıma doğru aparıb. Hərbçi olmaq, ön xətdə qulluq etmək ən böyük arzum olub. Mən hərbə ruhumla bağlıyam, ön xətdə xidmət edən gənclərə də rəğbətim böyükdür. Bir atalar sözü yadıma düşür: "Ağac yaşkən əyilir". Bu sözlər dərin mənaya malikdir.Yəni, əsgərlərimizi ilk gündən necə öyrədiriksə, müəyyən bir zaman kəsiyindən sonra bütün öyrətdiklərimizin onların formalaşmasında önəmli təsiri olur".



Həmsöhbətim inanır ki, bütün dediklərinin reallaşması üçün ilk növbədə komandir kollektivdə lider olmağı bacarmalı, əsgərlərinə bərabər şəkildə qayğı göstərməlidi. Əsgərə qayğı göstərsən, onun təlim-tərbiyəsi ilə düzgün məşğul olsan, o yaxşı əsgər olacaq. "Hesab edirəm ki, bu gün tabeçiliyimdə olan əsgərin əldə etdiyi uğur mənim, Azərbaycan Ordusunun bütövlükdə uğurudu. Bu uğurun nəticəsidir ki, Azərbaycan Ordusu aprel zəfərini qazandı. Bu gün də Azərbaycan Ordusunun şəxsi heyəti istənilən şəraitdə, istənilən relyefdə düşmənlə mübarizə aparmaq gücündədi".

Zabit söhbət zamanı onu da bildirdi ki, hər bir əsgər ilk növbədə valideynlərinə, cəmiyyətimizə, Vətənə, torpağa layiqli övlad olmalı, hərbi nizamnamələrə riayət etməlidir.

Həmsöhbətim onu qeyd etdi ki, Ali Baş Komandanımızın digər sahələrə olduğu kimi, ordu quruculuğuna da diqqət və qayğısı böyükdür: "Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu yaxınlarda hərbi hissəmizə, ön xətdə olan bölmələrimizə səfəri bizə yüksək əhval-ruhiyyə bəxş etdi. Bütün bunlardan sonra bizim üzərimizə bir məsuliyyət düşür - xalqımızı Qarabağımızla qovuşdurmaq". İnanırıq ki, Azərbaycan zabiti, Azərbaycan əsgəri üzərinə düşən missiyanın öhdəsindən layiqincə gələcək!

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Azərbaycan-Türkiyə birliyinin böyük gələcəyi var"

*Azərbaycan-Türkiyə münasibətləri dünya dövlətləri üçün bir nümunədir. Ölkələrimizin dostluğu, qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir. Biz eyni köklü xalqlarıq, dilimiz, dinimiz, mədəniyyətimiz, tariximiz, adət-ənənələrimiz eynidir. Münasibətlərimizin təməlində bu amillər durur.*

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Musa Qasımlı deyib.

Musa Qasımlı bildirib ki, iki ölkə arasında münasibətlər beynəlxalq hüquq normalarından irəli gələn prinsiplərə əsaslanır. Dövlətimizin başçısı İlham Əliyevin Prezident seçiləndən sonra ilk səfərini Türkiyəyə etməsi Azərbaycan dövlətinin xarici siyasətində qardaş ölkənin tutduğu yeri göstərir. Bizimlə strateji tərəfdaş olan Türkiyə ilə əməkdaşlığın böyük perspektivləri var. Bu əməkdaşlıq diplomatik, siyasi, ticari, iqtisadi, elmi, texniki, mədəni, humanitar, hərbi və başqa sahələri əhatə edir. Səfər zamanı imzalanan sənədlər bir daha göstərdi ki, qarşılıqlı münasibətlərin böyük potensialı var.

"Bu səfər iki ölkə arasında əməkdaşlıqda yeni bir səhifə açacaq. Azərbaycan-Türkiyə münasibətləri yalnız ikitərəfli əhəmiyyət kəsb etmir, eyni zamanda, regionda və dünyada gedən bir çox proseslərə təsir göstərir. Bu gün Türkiyənin gücü Azərbaycanın gücüdür, Azərbaycanın gücü Türkiyənin gücüdür. Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyə qədər Azərbaycana dəstək verən ikinci ölkə olmayıb. Azərbaycan-Türkiyə münasibətləri regionda qüvvələr nisbətinin dəyişməsinə, geosiyasi şəraitə ciddi təsir göstərir. Bu gün məhz Azərbaycan-Türkiyə əməkdaşlığı nəticəsində böyük geosiyasi layihələr həyata keçirilib və bu layihələr Avrasiyanın simasını dəyişib. Biz Avrasiyanın energetika və nəqliyyat xəritəsini cızırıq. Bizim həyata keçirdiyimiz layihələr sabitliyi və təhlükəsizliyi möhkəmləndirir. Bütün bu işlərin görülməsi, xüsusən neft-qaz boru kəmərlərinin, nəqliyyat, kommunikasiya xətlərinin çəkilməsi Azərbaycanın və Türkiyənin liderlərinin əzmkarlığı nəticəsində mümkün olub. Azərbaycan-Türkiyə birliyinin böyük gələcəyi var. İki ölkə arasındakı münasibətlər regionda münaqişələrin davam etməsində, onların uzadılmasında maraqlı olan dövlətlərə bir cavabdır", - deyə Milli Məclisin deputatı vurğulayıb.

*Gənclər siyasəti*

# "Azərbaycanın gələcəyi gənclərin əlindədir"

Hər bir ölkədə gənclər mühüm rola malik potensial qüvvə hesab olunur. Gənclər ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni və hərbi həyatında göstərdikləri güclü aktiv fəaliyyətləri ilə zəngin bazadırlar. Bu gün Azərbaycan gəncliyi də cəmiyyətdə tutduğu fəal mövqeyi və çevikliyi ilə seçilir. Azərbaycanımızın gələcəyi olan gənclər inkişafın və modernləşmənin operativ ön cəbhəsidir. Ümummilli liderimiz Heydər Əliyev həmişə gənclərə güvənərək onlara böyük etimad göstərirdi və deyirdi: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik." Bəli, Azərbaycanda gənclər siyasəti həmişə dövlət siyasətinin əsas tərkib hissəsi kimi xüsusi yer tutub.

Bu gün qürurla demək olar ki, gənclərimiz elm və təhsil sahəsində yüksək nailiyyətlər qazanaraq cəmiyyətin inkişafına öz layiqli töhfələrini verirlər. Gənclərimiz milli-mənəvi dəyərlərimizin qorunmasında, dövlətçilik ənənələrimizin dünyada tanıdılmasında səy və bacarıqlarını təsdiqləyir, qəhrəmanlığın, vətənpərvərliyin təbliğ olunmasında böyük işlər aparır və cəmiyyətin inkişafı istiqamətində ciddi addımlar atırlar. Azərbaycan əsgəri yayın qızmarında, qışın sazağında səngərlərdə Vətənin müdafiəsində dayanıb, Vətəninin ərazi bütövlüyünü qoruyur, düşmən işğalında olan torpaqlarımızın azad edilməsi üçün Ali Baş Komandanın verəcəyi əmrə hazırdır.

Bu günlərdə Milli Azərbaycan Tarixi Muzeyində ordumuzun aprel döyüşlərinin ildönümünə həsr olunmuş tədbirin keçirilməsində də əsas məqsəd gənc nəslin vətənpərvər ruhda yetişməsi, şanlı dövlətçilik və hərb tariximizin daha dərindən öyrənilməsi, Vətən, torpaq uğrunda şəhid olan qəhrəmanların tanıdılması idi. Tədbir muzeyin xarici əlaqələr və elmi kütləvi iş şöbəsinin və Yeni Azərbaycan Partiyasının "Azərbaycan tarixçiləri" ilk ərazi təşkilatının birgə təşkilatçılığı ilə reallaşdı. Əksəriyyəti gənclərdən ibarət olan tədbirdə Dövlət Rəssamlıq Akademiyasının tələbələri, orta məktəb şagirdləri, Qarabağ müharibəsi veteranları, ictimai və dövlət təşkilatlarının nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Tədbirdə ulu öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Muzeyin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəhmən Kərimov çıxış edərək dövlətin gənclər siyasətindən, bu istiqamətdə qəbul edilən qərarlarından, proqramlarından, iki il öncə Azərbaycan Ordusunun aprel qələbəsindən bəhs etdi.

Gənc alim vurğuladı ki, ümummilli liderimiz Heydər Əliyev hər zaman gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin formalaşmasını dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib. "Ulu Öndərin potensial güc mənbəyi kimi elmi-fiziki güclərinə üstünlük verdiyi, ictimai və sosial həyatın, cəmiyyət quruculuğunun bütün sferalarında təmsil olunmalarına geniş imkanlar yaratdığı qüvvə həmişə gənclər olub. Gənclərimizə böyük ümidlər bəsləyən Ümummilli Liderimiz həmişə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Bu gün əsas amal ölkəmizin formalaşan gənclər ordusunu gələcəyə aparmaqdır. Şübhəsiz, bu belə də olacaq. Çünki Azərbaycan gəncliyi dövlətimizin başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə sabah yeni uğurlar qazanmağa daha yaxındır."



Aprel döyüşlərində xalqla ordunun birliyindən, xüsusilə həmin ərəfədə gənclərin daha çox fəallıq göstərməsindən, onların yüksək döyüş əhval-ruhiyyəsindən söz açan B.Kərimov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmən işğalında olan torpaqlarımızın tezliklə azad olunacağına əminliyini bildirdi.

Qarabağ qazisi, ehtiyatda olan baş leytenant İslam Əzimov bildirdi ki, orta məktəblərdə keçirilən "Cəsurlar" və "Şahin" hərbi idman oyunlarında gənclərimizin fəallığı, yarışın şərtlərini yüksək göstəricilərlə həyata keçirmələri, dərslərdə və məşğələlərdə hərbi qaydaları öyrənməyə böyük həvəs göstərmələri biz müəllimlərdə qürur hissi yaradır. "Bu gün fəxrlə deyə bilərəm ki, məktəbimizdə ali hərbi məktəbə daxil olmaq və hərb peşəsinə yiyələnmək arzusunda olan şagirdlərimiz çoxdur."

2016-cı il aprel döyüşlərinin ildönümünə həsr olunan "Tariximizin şanlı qələbə döyüşü" adlı tədbir gənclərin hazırladığı ədəbi-bədii proqramla başa çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Redaksiyamızın poçtundan*

# "Vətən naminə şəhid olanlar dünyada əbədi bir nəğmə kimi qalır"

Azərbaycanlı olmağımla mən də fəxr edirəm. Mən də qürurlanıram ki, belə bir dövlətin vətəndaşıyam.

Atam hərbçi olub. Onun təəssüratlarını bacım da, mən də maraqla dinləmişik, dinləyirik. Atamın döyüşlərdə gördükləri, müşahidə etdikləri bizim dərslərdə öyrəndiklərimizi, müəllimlərimizdən eşitdiklərimizi tamamlayırdı. Vətənimizə, deməli, ordumuza sevgimiz daha da artırdı. Atam döyüşlərdə tanıdığı əsgərlərimizdən danışanda elə bilirdik ki, söhbət qardaşlarımız haqqındadı. O, Yusif Mirzəyevi, Vəzir Orucovu, Şirin Mirzəyevi, Şikar Şikarovu,... unutmur. Onların xatirəsini biz də əziz tuturuq.

Mən Azərbaycanın Milli Qəhrəmanı Şikar Şikarovun qızıyla körpəliyimdən tanışam. Bir məhəllədə yaşayırdıq. Hərbçi görəndə ayaq saxlayardı. Hamımızdan gizlətsə də, qəhərləndiyini hiss edirdik. Bir dəfə mayor rütbəli bir hərbçi bizim yanımızda ayaq saxladı. Baxışları Elzadan üzülmürdü. Yaxınlaşdı. "Kimin qızısan qızım?" - soruşdu. Elza bir anlığa duruxdu. Sonra "Şikar Şikarovun..." - dedi. Mayor onu bağrına basdı. "Sən çox dəyərli bir kişinin qızısan. Sən mənim komandirimin qızısan. Sən qürurla deyə bilərsən ki, mən Vətənin ən dəyərli vətəndaşlarından birinin qızıyam...". Onda uşaq olsaq da əmin olduq ki, şəhidlər unudulmur. İndiyəcən o mayorun gözlərindən süzülən göz yaşlarını unuda bilmirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan və itkin düşən hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında fərmanını o ailələr də, o ailələri tanıyanlar-tanımayanlar da böyük ehtiramla, böyük minnətdarlıqla qarşıladılar. Hamı bir daha inandı ki, ömür payını Vətən üçün yaşayanlar heç zaman unudulmur.

Xalq şairi Səməd Vurğun demişkən, Vətəni sevənlər, Vətən naminə şəhid olanlar dünyada əbədi bir nəğmə kimi qalır. Onların ömrü əbədiyyətə qovuşur...

**Gülsurə HÜSEYNOVA,**
**Bakı şəhəri**

"Xəzər" universitetinin tələbəsiydim. Hər il 20 Yanvar faciəsində həlak olanları ziyarətə gedirdik. Kövrəlirdik, qəhərlənirdik, hərdən göz yaşlarımızı saxlaya bilmirdik. Bir dəfə bir ağbirçək kövrəkliklə soruşdu ki, şəhidlər nəyimizdi. Bir-birimizə baxdıq. Nənə bildiyimiz ağbirçəyin sualını cavabsız qoya bilməzdik. "Hamısı əmimizdi, dayımızdı..." - dedik. Ağbirçəyin göz yaşları yanaqlarında közə döndü: "Oğlum şəhid olub. O da sizin əminizdi, a bala. Onlara belə dəyər verməyiniz, onları unutmamağınız, dərdimi yüngülləşdirir...

O vaxtdan illər keçib. Şəhidliyə, şəhidlərə ehtiramımız zərrəcə azalmayıb, azalmayacaq.

Hamımızın ümumi qəhərimiz birdi, hamımızın istəyi, arzusu birdi - torpaqlarımız işğaldan azad edilsin. Azərbaycan əsgəri xalqımızın bu istəyini yaxın vaxtlarda gerçəkləşdirəcək. Onda Şəhidlər xiyabanına gedəcəyik, - şəhid analarının, nənələrinin əzizi kimi. Onda ağbirçəklərin qəhərini bir sevincin əvəzlədiyini görəcəyik; anaların şəhidlərimizə xitabən dediklərini aydınlığıyla eşidəcəyik: ruhunuz şad olsun, ay oğul. Qanınız yerdə qalmadı...".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan və itkin düşən hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında fərmanı şəhid olan və itkin düşən hərbi qulluqçuların analarına böyük maddi və mənəvi dəstəkdir. Analar bir daha inanır ki, dövlət onların oğullarını da, özlərini də unutmur, unutmayacaq.

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**



*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İnsan hüquqları üzrə müvəkkilin birgə planına əsasən, Ombudsman Aparatının nümayəndələri Hərbi Hava Qüvvələrinin bölmələrində olublar.*

# Ombudsman Aparatının nümayəndələri Hərbi Hava Qüvvələrinin bölmələrində olublar

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ombudsman Aparatının nümayəndələri Fəzail Həsənov və Murad Babayev hərbi qulluqçuların məişət şəraiti ilə tanış olub, hərbi hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətini öyrənib və şəxsi heyətin suallarını cavablandırıblar.

Aparatın əməkdaşları əsgər yataqxanalarına, yeməkxanalara, tibb məntəqələrinə, məişət və digər inzibati otaqlara baxış keçirərək qidanın və müalicə işinin keyfiyyətini, asudə vaxtın səmərəli keçirilməsi üçün yaradılan şəraiti, şəxsi heyətlə vətənpərvərlik və təlim-tərbiyə sahəsində aparılan işi müsbət qiymətləndiriblər.



*Azərbaycan Ordusu - 100*

# Əlahiddə Azərbaycan Korpusunun komandiri

*Azərbaycanın sərkərdə oğulları, Cümhuriyyət generalları heç zaman unudulmur, həyat və döyüş yolları tarixin hər dönəmində gələcək nəsillərə təbliğ edilir. 2014-cü ildə ölkə Prezidenti İlham Əliyevin generallar - Əlağa Şıxlinskinin 150, Cəmşid Naxçıvanskinin 120 və 2015-ci ildə isə Səməd bəy Mehmandarovun 160 illik yubileylərinin keçirilməsi barədə imzaladığı sərəncamlar xalqımızın, dövlətimizin hərb tarixinə, Cümhuriyyət tarixinə verdiyi diqqətin bariz nümunəsidir.*



Dövlət rəhbərinin ötən il imzaladığı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı sərəncamı da, 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunması da bu diqqətin davamıdır. Ümummilli liderimiz Heydər Əliyevin imzaladığı 22 may 1998-ci il tarixli fərmanı ilə müasir Azərbaycan Ordusunun Cümhuriyyət ordusunun (26 iyun 1918-ci il) varisi 26 iyun Azərbaycanın Silahlı Qüvvələri günü elan edildi.

Ölkə başçısının sərəncamından irəli gələn vəzifələr orduda yüksək səviyyədə həyata keçirilir. İctimai-siyasi hazırlıq prosesində şəxsi heyətə Cümhuriyyət tarixi dərindən öyrədilir, Azərbaycan Ordusunun yaradılması, formalaşması və Cümhuriyyət generalları haqqında məlumatlar onların diqqətinə çatdırılır.

Dünya müharibə tarixinə adı qızıl hərflərlə həkk edilən, Cümhuriyyət Ordusunun qurucularından olan tam artilleriya generalı Əlağa Şıxlinskinin hərb elmindəki kəşfi özünə də, Vətəni Azərbaycana da şan-şöhrət qazandırdı. Görkəmli generalın 150 illik yubileyi barədə Prezidentin sərəncamında deyilir: "XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əlağa Şıxlinski döyüşlərdəki şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yeniliklər ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir."

Əlağa İsmayıl oğlu Şıxlinski 23 aprel 1865-ci ildə Qazax rayonunun Qazaxlı kəndində anadan olub. O, ilk təhsilini Tiflisdə özəl gimnaziyada alıb. Tiflis hərb gimnaziyasını, Peterburqda artilleriya məktəbini bitirən Əlağa Şıxlinski dördüncü Şərqi Sibir atıcı-topçu briqadasının tərkibində 1904-1905-ci illər Rusiya-Yaponiya müharibəsində iştirak edib. Port-Artur döyüşlərində qala müdafiəsi zamanı düşmən həmlələrinin dönə-dönə məhv edilməsində böyük xidmətləri olub, hərbi rəşadət göstərib. Qəhrəmanlığı altı ordenə "Müqəddəs Stanislav" ordeninin üç dərəcəsi, "Müqəddəs Anna" ordeninin dörd dərəcəsi, "Müqəddəs Vladimir" ordeninin ikinci, üçüncü, dördüncü dərəcələri, "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsi, bir çox xarici dövlətlərin orden və medallarına layiq görülən sərkərdə generalımız özünün "Xatirələrim"də yazır ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla xatırlayıram.

Hərb elminin mahir bilicisi olan həmyerlimiz 1908-ci ildə polkovnik, 1912-ci ildə general-mayor, 1917-ci ildə general-leytenant rütbəsinə layiq görülüb. O, çar ordusunda rus artilleriyasının Allahı sayılırdı.

Dünya şöhrətli general 1917-ci ildə hərbi fəaliyyətini Qafqazda davam etdirib. Bununla bağlı xatirələrində yazırdı: "1917-ci il noyabrın 15-də Qafqaza gəldim. Öz xalqımı baş verə biləcək xarici təsirlərdən və daxili qarışıqlıqlardan qorunmasına xidmət etmək arzusu ilə Azərbaycan korpusu təşkil etməyi lazım bilib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım."

1917-ci ilin dekabrın 11-də Zaqafqaziya komissarlığı müsəlman hərbi birləşməsinin yaradılması haqqında dekret verir. 1918-ci ilin əvvəllərinədək korpus Tiflisdə yerləşirdi. Zaqafqaziya Hərbi Komissarlığının qərarı ilə general-leytenant Əlağa Şıxlinski tərkibi əsasən azərbaycanlılardan ibarət olan Müsəlman Korpusuna rəhbərlik edirdi. Bu o dövrlər idi ki, artıq çar Rusiyası devrilmiş Şərqdə ilk demokratik respublika elan edilmişdi. 1918-ci il iyunun 26-da yaradılan Əlahiddə Azərbaycan Korpusunun komandiri general Əlağa Şıxlinskinin rəhbərliyi altında müstəqil Azərbaycan Ordusunun korpusda xidmət edən azərbaycanlılardan ibarət təməli qoyuldu.

Ölkədəki mövcud hərbi-siyasi durum Cümhuriyyət hökumətinin hərbi nazirliyinin, ordusunun yaradılmasını zəruri edirdi. Yenicə formalaşmaqda olan Əlahiddə Azərbaycan Korpusu Müsəlman Korpusunun bazasında təşkil olundu.

1918-ci il dekabrın 29-da Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirinin müavini təyin edilən görkəmli general Ə.Şıxlinskinin milli ordu quruculuğunda əvəzsiz xidmətləri olmuşdur. O, illərlə qazandığı təcrübəsinə əsaslanaraq Cümhuriyyət ordusunun yaradılmasına, formalaşmasına çalışdı və ömrünün müəyyən dönəmini milli ordu quruculuğuna həsr etdi. Cümhuriyyət ordusunun rəhbərlərindən sayılan Ə.Şıxlinski bununla bağlı deyirdi: "...Ordu xalqın istinadgahıdır - bura xalqın ləyaqətli oğulları gəlməlidir."

1920-ci il bolşevik işğalından sonra görkəmli hərb xadimi Ə.Şıxlinski həbs təhlükəsi ilə üz-üzə qalır, qırmızı terror onun da başı üzərində qara buluda çevrilir. O zaman Azərbaycan Xalq Komissarları Sovetinin sədri olan Nəriman Nərimanovun V.İ.Leninə yazdığı məktub S.Mehmandarovun və Ə.Şıxlinskinin həbsinin qarşısının alınmasında böyük rol oynayır.

Ə.Şıxlinskinin Sovet dönəmində hərbi elmi-pedoqoji fəaliyyəti milli hərbçi kadrlarının yetişdirilməsinə böyük töhfə olmuşdur.

Hərb elminin mahir bilicisi olan böyük alim artilleriya nəzəriyyəsinə gətirdiyi yeniliklər: "Şıxlinski üçbucağı", "Şıxlinski formulu" bu gün də hərbi təcrübədə tətbiq edilməkdədir.

O, "Cəbhədə səhra toplarının işlədilməsi", "Rusca-türkcə müxtəsər hərbi lüğət" kitablarını dərs vəsaiti kimi yazıb. "Öz qoşunlarının başı üzərindən atəş", "Gələcək müharibə", "Dağlıq şəraitdə topçu atəşinin xüsusiyyətləri" və digər elmi məqalələr Ə.Şıxlinskinin təxəyyülünün məhsuludur. Görkəmli generalımız Azərbaycanda ilk hərbi memuarın müəllifidir. Onun "Xatirələrim" adlı hərbi memuarı ilk dəfə ölümündən bir il sonra 1944-cü ildə çap olunur.

Yaşadığı dövrün çətinliklərinə dərin təfəkkürü, iti ağlı və zəngin elmi istedadı ilə mərdliklə sinə gərən məşhur sərkərdə öz xatirələrini qələmə almaqla, Azərbaycan hərb tarixində yeni səhifələr açıb. "Xatirələrim"dəki "hazırkı dövrün insanlarının gözünə təmiz, vicdanla, dik baxıram", sözləri, əslində, onun şərəfli ömür yolunun təsdiqidir...

Doğma Vətəni Azərbaycana şan-şöhrət gətirən və onu dünyada tanıdan görkəmli həmyerlimiz Əlağa Şıxlinski 18 avqust 1943-cü ildə həyata gözlərini əbədi yumur. O, öz vəsiyyəti ilə Yasamal qəbiristanlığında dəfn edilib. Bu gün onun məzarı təkcə ordumuzun əsgər və zabitlərinin deyil, minlərlə vətəndaşların da daimi ziyarət yeridir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Ermənistan-Azərbaycan münaqişəsi NATO PA-nın seminarında diqqət mərkəzində olub

NATO Parlament Assambleyasının Batumidə keçirilən 97-ci "Rouz-Rout" seminarı aprelin 25-də işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, bugünkü sessiyada Cənubi Qafqazda davam edən münaqişələr və onların yaratdığı təhlükələr diqqət mərkəzində olub.

Çıxışlarda Cənubi Qafqazda mövcud olan münaqişələrin Avropa və Asiyanın təhlükəsizliyinə təhdid olduğu vurğulanıb.

Ermənistandan olan QHT nümayəndəsi Benyamin Poqasyan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açıb, problemin həlli ilə bağlı kompromis təklif edib.

Azərbaycan nümayəndə heyətinin məsələyə münasibəti çox gecikməyib.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxış edərək əvvəlcə münaqişənin tarixi və başvermə səbəbləri barədə ətraflı məlumat verib. O bildirib ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edib. Hazırda işğal altında olan həmin ərazilərdə narkotiklər yetişdirilir, terrorçular hazırlanır. Həmin ərazilərdə hazırlanan terrorçular isə dünyanın bir çox ölkələrində qanlı terror aktları və digər cinayətlər törədirlər. Dünya birliyi bunu unutmamalıdır.

M.İbrahimqızı deyib: "Təəssüf ki, bu gün işğala məruz qalanla işğalçıya fərq qoyulmur. Lakin işğala məruz qalandan kompromis tələb olunur. Bu, mümkünsüzdür, ilk növbədə, işğala son qoyulmalı, işğalçıya qarşı tədbirlər görülməlidir. Bütün beynəlxalq təşkilatlar işğalçıdan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını tələb etməlidir".

Deputat bildirib ki, Azərbaycan öz torpaqlarını güc yolu ilə azad edə bilər, lakin yenə də problemin həlli üçün sülh yoluna üstünlük verir.



*Aprel zəfəri unudulmayacaq. O döyüşlərin iştirakçılarının fakta söykənən təəssüratları mahiyyəti etibarilə vətənpərvərlik dərsliyinin tərkib hissəsidir. O dərsliyi böyük sevgilərlə, qürurla "Vətən sevgisi" adlandıra bilərik.*

*Ovqat*

# Vətənpərvərlik

Dərsin marağı məzmundadı; məzmunlu söhbətlərin mahiyyəti Vətəndirsə, torpaqlarımızın işğaldan azad edilməsi istəyidirsə, aprel döyüşlərinin şəhidlərinə (ümumən şəhidlərimizə) ehtiramdırsa, ordumuza - səngərləri sərhədlərə köçürəcək əsgərlərimizə güvəncdirsə, həvəslə dinlənilir. Aprel döyüşləri zamanı orta məktəbdə oxuyanlar, tələbələr bu söhbətləri daha dərinı maraqla dinləyirlər - əsgərdirlər, hərbi xidmətdədirlər, başlanğıcı aprel zəfəri olacaq Böyük Qələbənin əsgəri olmaq istəyiylə xidmət edirlər.

2016-cı ilin aprel döyüşlərində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Maarif Quliyev də iştirak edib. Sol ayağından və sol qolundan qəlpə yaraları alıb. Bu hərbi hissədə xidmətə gələnlər onun söhbətlərini o qədər maraqla dinləyirlər ki! - döyüşlərdən danışır Maarif, döyüşənlərdən, qəhrəmanlardan, şəhidlərdən danışır. Ermənilərin irimiqyaslı təxribat törətmək istədiyindən danışır, əks-hücumdan, ermənilərin Lələtəpənin sol qanadındakı qəbiristanlıqda qəbirlərdən müdafiə məqsədilə istifadə etdiyindən, əsgərlərimizin qətiyyəti qarşısında duruş gətirə bilməməsindən - qaçmasından, əsgərlərimizin rəşadətindən,.. danışır. Hər kəlməsi Vətənə, torpağa, Böyük Qələbəyə bağlı olan belə söhbətlər əsgərlərin mənəvi-psixoloji hazırlığında olduqca gərəklidir. Belə söhbətlərdə gənc əsgərlərin gözlənilən gözlənilməz sorğusu da olur: "Qələbədən sonra nələr arzulayırdın?". "Tez sağalmaq, sıraya tez qayıtmaq" deyən Maarif müalicə olunub, xidmətini davam etdirir. Hərbi vəzifələrini də yerinə yetirir, mənəvi borcunu da - gənc əsgərlər də aprel döyüşlərinin iştirakçıları kimi qətiyyətli, hünərvər, dönməz olsunlar.

Hərbi hissədə asudə vaxtlarda gənc əsgərlər belə söhbətləri dinləməyin təşnəsidi. Dinləyirlər, söhbət-söhbət Raqufla-şırlar, Samidləşirlər,...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# "Böyük Qələbə günü ərəfəsindəyik"

Rubrikamızın qonağı Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramovdur.



Cəbi müəllim 2018-ci ilin tariximizə əlamətdar bir il kimi daxil olduğunu, Prezident İlham Əliyevin imzaladığı sərəncamla Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edilməsinin əhəmiyyətini xüsusi vurğuladı. "2018-ci ildə həyata keçiriləcək tədbirlərin miqyası çox böyükdür. Bir əsr öncə xalqımız müsəlman Şərqində ilk demokratik dövlət yaratdı. Bu, tariximizin ən şərəfli səhifələrindən biridir. Dövrün çətinliklərinə, problemlərinə baxmayaraq, o zaman Cənubi Qafqaz Seymində təmsil olunan 44 nəfərdən 26-nın bilavasitə iştirakı ilə mayın 27-də Tiflis şəhərində Milli Şura yaradıldı. Mayın 28-də isə müstəqil dövlətin yaradılması haqqında İstiqlal Bəyannaməsini qəbul edildi. Amma bu heç də asanlıqla baş vermədi. Çünki müstəqilliyə gedən yol ağır sınaqlardan keçir. Alimlərimiz tərəfindən tariximizin bu səhifəsi tədqiq edilib. Hələ Sovet dönəmində ilk dəfə olaraq bu mövzunun araşdırılması hazırda Prezident Administrasiyası katibliyinin rəisi, tarix üzrə fəlsəfə doktoru, professor Dilarə Seyidzadə tərəfindən həyata keçirilib. Onun tədqiqat işinin mövzusu məhz cümhuriyyətin görkəmli şəxslərinin fəaliyyəti ilə bağlı olub. "Azərbaycan deputatları Rusiya Dövlət Dumasında" adlı əsər yazılıb. Onun istər tarix üzrə fəlsəfə doktoru, istərsə də tarix üzrə elmlər doktoru dissertasiyalarının mövzusu Cümhuriyyətə qədərki dövrdə Rusiya Dövlət Dumalarında təmsil olunan böyük şəxsiyyətlərimizin - Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Xəlil bəy Xasməmmədovun, Məmməd Yusif Cəfərovun və bir çoxlarının fəaliyyəti ilə bağlı olub. Sovet dönəmində qadağan olunan bu mövzunun işlənməsi akademiyanın müxbir üzvü mərhum Əlövsət Quliyevin elmi rəhbərliyi altında həyata keçirilib. Müəllifin 2004-cü ildə "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yol" adlı qiymətli əsəri Azərbaycan və ingilis dillərində çapdan çıxdı. Bu əsər mükəmməl və yeni faktlarla zəngin olan bir tədqiqat əsəridir. Əsərdə Cümhuriyyət dövrü geniş tədqiq olunub".

1991-ci ildə AMEA-nın Rəyasət Heyətinin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyəti tarixi şöbəsinin institutda yaradıldığını bildirən müsahibim qeyd etdi ki, şöbədə Cümhuriyyətin tarixi bütün spektrləri ilə bərabər tədqiq olunur. "Burada, əlbəttə ki, dövlətin əsas atributlarından biri olan ordunun yaradılma tarixindən ta Cümhuriyyətin süqutuna qədər olan dövr alimlərimiz tərəfindən araşdırılıb. Cümhuriyyət ordusunun yaranma tarixi Azərbaycanın müdafiə məsələlərində, xüsusilə də erməni separatizminə qarşı mübarizədə rolu əsərdə tam araşdırılıb".

Cəbi müəllim söhbətində onu da bildirdi ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda ordu quruculuğu ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. 1993-cü il noyabrın 2-də "dahi rəhbərin müraciətindən sonra 100 mindən çox Azərbaycan vətəndaşı ordu sıralarına qoşuldu. Qısa müddətdə Füzuli rayonunun 20-dən artıq kəndi işğaldan azad olundu. Ümummilli Liderimiz böyük güc sərf edərək yeni modernləşdirilmiş ordunun yaradılması üçün konkret qərarlar qəbul etmişdi. Ulu Öndərin işləyib hazırladığı yeni milli dövlət quruculuğu strategiyasının ana xəttini ölkəmizin təhlükəsizliyini təmin edən ordunun yaradılması təşkil edir. 2004-cü ildən başlayaraq Ümummilli Liderin yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin atdığı addımlar nəticəsində bu gün Azərbaycan Ordusu Qafqazda ən qüdrətli bir orduya çevrilib. Ordumuz öncül yerlərdən birini tutur. Son illərdə nüfuzlu beynəlxalq bir təşkilatın verdiyi hesabatda 106 ölkənin qərarlaşdığı siyahıda Azərbaycan Ordusunun 50-ci yerdə olduğu göstərilir. Bu fakt məndə qürur hissi yaratdı".

Prezident İlham Əliyevin Azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı sərəncamından irəli gələn bəzi vacib məsələlərə toxunan alim bildirdi ki, erməni daşnakları, Andranik başda olmaqla, xarici havadarlarının maliyyə dəstəyi ilə Urmiya, Xoy vilayətlərində, Təbrizdə və Cənubi Azərbaycanın digər ərazilərində 140 min azərbaycanlını məhv etmişlər. "Bu qətliamların həyata keçirilməsində xarici missioner təşkilatların böyük fəaliyyəti olub. Belə faktları təsdiq edən arxiv sənədləri var. Biz bu sənədləri əldə etmişik. Şimali Azərbaycana gəldikdə isə soyqırımı cinayətlərinin tarixi coğrafiyası Bakıdan başlayıb İrəvanda, Qarsda, Ərzurumda bitir. Bakıda azərbaycanlı əhalisinə qarşı törədilən soyqırımı cinayətlərinin əsas səbəbkarları Sovet Rusiyası, onun rəhbəri Vladimir İliç Lenindir. 1917-ci il dekabrın 16-da Leninin sərəncamı ilə başkəsən, cəllad, quldur S.Şaumyana 500 min rubl pul ayrılır. 1918-ci il fevralın 14-də Leninin imzaladığı digər bir sənədlə yenə də daşnak S.Şaumyana 31.8 milyon rubl pul ayrılıb. Beləliklə, erməni-bolşevik hərbi qüvvələri həmin vəsaitlərin gücünə Bakıda, Şamaxıda, Qubada və digər ərazilərdə azərbaycanlı əhalisinə qarşı kütləvi soyqırımı cinayətləri törədib. Bilirsiniz, əgər cinayət bir millətə irqi, dini, milli mənsubiyyətinə görə edilibsə, deməli, bu soyqırımı cinayətidir. Cənab Prezidentin imzaladığı sərəncam bu faktların daha dərindən öyrənilməsi baxımından tarixi bir sənəddir".

Cəbi müəllim Tarix İnstitutunda "Azərbaycan tarixi: arxiv sənədlərində" adlı layihənin də uğurla həyata keçirildiyini dedi və bu barədə bəzi məlumatları oxucularımızın diqqətinə çatdırdı: "Bu layihənin əsasında biz Rusiya Federasiyası ərazisində səhifəsi 1 milyondan çox olan arxiv sənədi əldə etmişik. Gürcüstan, Orta Asiya Respublikaları, Hindistan, İran, Avropa ölkələrindən - İngiltərə, Fransa, Almaniya, Polşa və xüsusilə Türkiyənin Osmanlı arxivindən sayı bilinməyən sənədlər əldə olunub. 1918-ci il 31 mart azərbaycanlıların soyqırımı ilə bağlı 36 cildlik təhqiqat komissiyasının sənədləri də bizim Milli Dövlət Arxivində saxlanılır. Bu sənədlərin elmi dövriyyəyə təqdim olunması prosesi həyata keçirilir. Bölgələr üzrə Bakı, Quba, Şamaxı, Qarabağ, Zəngəzur, İrəvan, Naxçıvan, Lənkəran, o cümlədən Cənubi Azərbaycanda azərbaycanlılara qarşı törədilən soyqırımı aktını araşdıran müəlliflər qrupu var. Onlar arxiv sənədlərini elmi dövriyyəyə gətiriblər. Bu əsərlər ən azı üç dildə - ingilis, rus, Azərbaycan dilində nəşr olunur. Həmin əsərlərin dünya ölkələrində yayılması prosesi də həyata keçirilir. Biz ilk növbədə, Azərbaycan vətəndaşı olaraq, Azərbaycan alimləri olaraq, xalqımız, dövlətimiz qarşısında vətəndaşlıq borcunu yerinə yetirərək tariximizin qaranlıq səhifələrinə işıq salırıq. Bəli, xalq öz tarixi keçmişini bilməlidir".

Kütləvi informasiya vasitələrində, xüsusilə də televiziya kanallarında ordumuzu, hərb tariximizi təbliğ edən verilişlərə münasibətini açıqlayan alim onu da bildirdi ki, milli-mənəvi dəyərlərimizi gənclərimizə aşılamaq baxımından belə verilişlərin hazırlanması çox vacibdir." Mübariz İbrahimov, Fərid Əhmədov, Əlif Hacıyev, Şirin Mirzəyev, elə son aprel döyüşlərinin qəhrəmanlarına həsr olunan silsilə verilişlərin hazırlanması təqdirəlayiqdir. Onların haqqında çəkilən bədii, sənədli filmləri orta, ali məktəblərdə təhsil alan gənclərə, hərbi xidmət keçən əsgərlərə vaxtaşırı nümayiş etdirmək lazımdır."

Cəfakeş alim son illər orduda aparılan irimiqyaslı islahatlara da münasibətini bildirdi. "Orduda əsaslı şəkildə böyük dəyişikliklər baş verib. Genişmiqyaslı təlimlərin keçirilməsi, ordu rəhbərliyinin tez-tez döyüş bölgələrində əsgər və zabitlərlə görüşməsi fəxr ediləsi haldır. Orduda aparılan islahatlar xalqımızda gələcəyə böyük ümidlər yaradıb. Aprel döyüşləri ordumuzun gücünü, qüdrətini düşmənə bir daha göstərdi. Qısa zamanda ordumuzun təmas xəttində yerləşən hərbi birləşmələri tərəfindən düşmən hücumunun qarşısının əks-həmlə ilə alınması erməni ordusunun məğlubedilməzliyini sabun köpüyünə çevirdi. Bütün bunlar uğurlu ordu quruculuğu siyasətinin, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin orduya yüksək diqqət və qayğısının nəticəsidir".

Tarix üzrə fəlsəfə doktoru C.Bəhramov söhbətinin sonunda Vətənimizin keşiyində ayıq-sayıq dayanan hərbçilərimizə cansağlığı və Azərbaycanımızın ərazi bütövlüyü, torpaqlarımızın azadlığı naminə - Böyük Qələbə naminə müqəddəs xidmətlərində uğurlar arzuladı. O, əminliklə bildirdi ki, qəhrəman, vətənpərvər əsgər və zabitlərimizin hesabına tezliklə Şuşa, Xankəndi, Laçın və digər işğal altında olan torpaqlarımızı azad edəcəyik. "Bizim heç kəsin torpağında gözümüz yoxdur. Xalqımızın igid övladları istər Xocalı soyqırımı qurbanlarının, istərsə də 1918-ci il 31 mart qırğınlarının qurbanı olmuş soydaşlarımızın qisasını mənfur ermənilərdən alacaqlar".

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

## Benzin oğurlayan erməni hərbçi tutulub

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində, idarə etdiyi hərbi avtomaşından benzin oğurlayaraq satan hərbi qulluqçu Gevork Gevoryan hərbi polis əməkdaşları tərəfindən saxlanılıb.

Sürücü izahatında bunu özbaşına deyil, komandirin göstərişi ilə etdiyini, əldə olunan pulları isə hərbi hissədəki çatışmazlıqları aradan qaldırmaq məqsədiylə xərclədiyini deyib.

Məsələ həddən artıq "böyüməsin" deyə hərbi hissənin komandanlığı hərbi polislə "razılığa" gəlib. Sövdələşmədən sonra işə xitam verilib, sürücüyə isə "töhmət elan edilib".

## Erməni polkovnik rüşvət verdi, qohumunu Yerevana yerləşdirdi

İşğalçı Ermənistan ordusunun bütün kateqoriyalardan olan hərbçilər arasında rüşvətxorluq artıq erməni ictimaiyyətində heç kimi təəccübləndirmir.

Bu günlərdə daha bir yüksək rütbəli erməni zabitin rüşvət alması barədə xəbər yayılıb. Məlumatda bildirilir ki, polkovnik Armen Baqdasaryan yüksək məbləğdə rüşvət müqabilində Xankəndidə xidmət edən Nver Avetisyanı Yerevan şəhərində disloksiya olunan hərbi hissələrdən birinə gətirib.

Məlumatın ortaya çıxmasına səbəb isə çox sadədir: bu işi yerinə yetirənlərin hansınasa çatacaq məbləğin 500 ABŞ dolları az olduğundan narazılıq. Yəni, erməni acgözlüyü polkovnikin biabırçılığına səbəb olub.

## Növbəti qanlı insident zamanı erməni əsgər ölüb

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən düşmən ordusunun bölmələrindən birində baş verən növbəti qanlı insident nəticəsində daha bir erməni əsgər ölüb.

Hadisəyə səbəb ön xətt bölmələrində mühəndis-istehkam işləri yerinə yetirən əsgərlərlə döyüş növbəsi çəkən bölüyün əsgərləri arasında yerlibazlıq zəminində baş vermiş mübahisə olub.

Ermənistanın Geqarkunik vilayətinin, Martuni şəhərindən hərbi xidmətə çağırılan Alik Karapetyan Qarabağdan olan snayper manqasının komandiri Armik adlı hərbçi tərəfindən odlu silahla vurulub.

Təcili yardım maşını ilə Ağdərə xəstəxanasına çatdırılan əsgərə ilkin tibbi yardım göstərildikdən sonra hərbi hospitala göndərilib. Yaralı əsgər barədə hərbi polisə məlumat verən növbətçi tibb bacısının bildirdiyinə görə, hərbi qulluqçu çoxlu qan itirib.

Hərbi hissə komandiri Stepanyana verilən məlumatda, xəstəxananın kardioloqu və hərbi həkim Azaryanın da faktı təsdiq etdiyi bildirilir. Həkimlərin səyinə baxmayaraq ağır yaralanmış A.Karapetyanın həyatını xilas etmək mümkün olmayıb.

Bildirilir ki, əsgər yoldaşını öldürən Armik adlı hərbi qulluqçu isə Dağlıq Qarabağın Martuni rayonundandır.

Faktla bağlı qəsdən adamöldürmə maddəsi ilə cinayət işi açılıb, araşdırma aparılır.

## Erməni hərbçi hərbi polis tərəfindən həbs olunub

İşğal olunmuş yaşayış ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun taborlarından birində xidmət edən çavuş Vahe Xaçaturyan hərbi polis tərəfindən tutulub.

İnsidentə səbəb idarəetmə taqımının şəxsi heyətinə qarşı V.Xaçaturyanın nizamnamədən kənar münasibəti, eləcə də əsgərləri təhqir edərək onları alçaltmasıdır. Onun tabeliyində olan hərbi qulluqçular izahatlarında belə halların dəfələrlə təkrar olunduğunu təsdiq ediblər.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Hərbi hissədə aktyorlarla görüş



Bu gün Azərbaycan Ordusunda şəxsi heyətin asudə vaxtının səmərəli təşkili mühüm əhəmiyyət kəsb edir. Ona görə də hərbi hissələrin rəhbərliyi tərəfindən şəxsi heyətin günün nizam qaydasına uyğun olaraq asudə vaxtının təşkili məsələsinə xüsusi diqqət yetirilir. Son illərdə bu istiqamətdə aparılan işlər olduqca təqdirəlayiqdir. Mədəniyyət və incəsənət nümayəndələri vaxtaşırı, əlamətdar və bayram günlərində maraqlı, rəngarəng musiqili proqramlar ilə hərbi qulluqçularımızın qonağı olur, onların asudə vaxtlarının şən və əyləncəli keçməsinə şərait yaradırlar. Şou xarakterli proqramların şəxsi heyətə nümayiş etdirilməsi ilə onlara yüksək əhval-ruhiyyə, xoş ovqat bəxş edirlər.

Bu günlərdə Azərbaycan Dövlət Musiqili Dram Teatrının bir qrup aktyoru "N" hərbi hissəsində şəxsi heyətin qonağı oldu. Əməkdar artist Novruz Əliyevin rəhbərliyi ilə teatrın



aktyor heyəti "Dörd bacının bir qardaşı" şou tamaşasını əsgər və zabitlərimizə nümayiş etdirdi. Şəxsi heyət şou tamaşanı böyük maraqla izlədi. Aktyorların canlı oyunu əsgər və zabitlərimizin alqışları ilə qarşılandı.

Sonda hərbi hissənin rəhbərliyi şəxsi heyətin asudə vaxtının səmərəli təşkilində yaxından iştirak etdiyinə görə teatrın rəhbərliyinə və yaradıcı kollektivinə minnətdarlığını bildirdi.

**"Azərbaycan Ordusu"**

# "Layiq olan qazansın"

*Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan Ordusunun yaranmasının 100 illik yubileyinə və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş kursantlararası 64 xanalı dama yarışı keçirildi.*

Yarışda Rezidentura və Tibb Heyətinin Təkmilləşdirmə kursunun, Hərbi həkim ixtisası hazırlığı və Feldşer hazırlığı kursunun şəxsi heyəti iştirak edirdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

İdman tədbirini Hərbi Tibb Fakültəsinin rəisi tibb xidməti polkovniki Çingiz Əlləzov açaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının tarixi hadisə olmasından, müsəlman Şərqində ilk dəfə olaraq müstəqil demokratik respublika yaranmasından danışaraq bildirdi ki, xalqımızın və milli dövlətçiliyimizin tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb bir dövrdə meydana gəlmiş və çox çətin şəraitdə fəaliyyət göstərmişdir. "Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyəti varisidir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin təntənə ilə qeyd edilməsi hər bir soydaşımız tərəfindən böyük rəğbətlə qarşılanır. 1920-ci ildə mövcud tarixi şəraitin doğurduğu qarşıqlıqlar içərisində itirilmiş milli dövlətçiliyimizin XX əsrin sonunda yenidən bərpası xalqımızda milli-azadlıq ruhunun yaşadığını təsdiqlədi".

Tibb xidməti polkovniki yeni müstəqillik qazanan dövlətimizin



açıq-aşkar parçalanmaq, məhv olmaq təhlükəsi qarşısında qalmasından danışaraq bildirdi ki, xalqın təkidi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizin davamlı və əbədi olması yolunda qətiyyətli addımlar atıldı və bu sahədə qarşıya çıxan çətinliklər aradan qaldırıldı. "Bütün varlığı ilə Vətənə və xalqa bağlı olan görkəmli şəxsiyyət, böyük dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini xalqımızın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir. Ümummilli lider Heydər Əliyev dövlətin xilaskarı olmaqla yanaşı, həm də millətinin taleyinin xilaskarıdır. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün öz inkişafının ən sürətli dövrünü yaşayır. Qüdrətli şəxsiyyətin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı məntiqli siyasət ölkəmizi bütün sahələrdə tərəqqiyə aparır. Bu gün ordumuz regionun ən güclü ordusudur. Aprel döyüşlərində əldə etdiyimiz qələbə də bunun göstəricisidir. Yaxın gələcəkdə şanlı ordumuz üçrəngli bayrağımızı Şuşada, Kəlbəcərdə, Xankəndidə və işğal altında olan əzəli torpaqlarımızda dalğalandıracaq".

Fakültə rəisi yarışın iştirakçılarına uğurlar arzuladı və "layiq olan qazansın" söylədi.

Ulu Öndərə həsr olunmuş videoçarx tədbir iştirakçıları tərəfindən diqqətlə izlənildi.

Yarışa hakimlik edən mayor Sahib Məmmədov Fakültə rəisinin əmrini və yarışın qaydalarını iştirakçıların nəzərinə çatdırdı.

Zabit və kursantların qatıldığı yarış başlandı.

Yarışlarda I yerə VI kursun 2-ci komandası, II yerə V kursun 1-ci komandası, III yerə VI kursun 1-ci komandası, IV yerə Feldşer hazırlığının II kursu layiq görüldü.

Yarışın sonunda qaliblər fəxri fərman və hədiyyələrlə mükafatlandırıldılar.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Məcburi köçkünlərin əsas humanitar ehtiyacları doğma yurdlarına qayıtmaqdır"

"Dondurulmuş münaqişələr" Avropa qitəsi üçün ən ciddi təhdiddir. Bu baxımdan Ermənistanla Azərbaycan arasında həll olunmamış münaqişə regional təhlükəsizliyə təhdid yaradır. Ermənistan Dağlıq Qarabağ və yeddi ətraf rayonun işğalını davam etdirir. Bu ərazilər isə beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınır. Müzakirə etdiyimiz qətnamə layihəsində həmkarlarım Azərbaycanın işğal altında olan kəndlərinin adlarına dair çaşqınlıq yaradan səhvlərin düzəldilməsini tələb etdilər. Biz bu adların Azərbaycan dilində qeyd edilməsini israr etdik.

AZƏRTAC xəbər verir ki, bu fikri AŞPA-nın yaz sessiyasında "Avropada öz ölkələrində məcburi köçkünlərin humanitar ehtiyacları və hüquqları" adlı qətnamə layihəsinin müzakirələri zamanı Azərbaycan nümayəndə heyətinin üzvü Elşad Həsənov bildirib.

Qeyd edib ki, məcburi köçkünlərin əsas humanitar ehtiyacları tezliklə doğma torpaqlarına qayıtmaq və orada yaşamaqdır. Ermənistanın təcavüzü nəticəsində doğma yurdundan didərgin salınmış azərbaycanlı məcburi köçkünün ən böyük arzusu məhz budur.

Millət vəkili E.Həsənov diqqətə çatdırıb ki, 1990-cı illərin əvvəllərində təxminən bir milyon Azərbaycan vətəndaşı öz doğma torpaqlarını, evlərini tərk edərək paytaxt Bakı və digər böyük şəhərlərə üz tutdular. O zaman 7 milyon Azərbaycan əhalisinin təxminən bir milyonu məcburi köçkün idi. Sosial, iqtisadi, demoqrafik və ən əsası insani baxımından belə bir köç ölkə üçün humanitar çətinlik yaratdı.

*Hərbi texnikalar, silahlar*

# Elbit "Hermes 900" uçuş aparatı

"Hermes 900" pilotsuz uçuş aparatıdır. İsrailin Elbit Systems şirkəti tərəfindən hazırlanıb. Onun ilk uçuşu 2009-cu ilin dekabrında həyata keçirilib. Seriyalarla istehsalına 2010-cu ildən başlanıb. Pilotsuz uçuş aparatı rabitə peyk sistemi, optik-elektron müşahidə sistemi, sintezləşdirilmiş radiolokasiya sistemi, infraqırmızı göstərici, lazerli hədəfgöstərici-uzaqölçən, radioelektron mübarizə vasitələri, həmçinin real vaxt rejimində



təsvirləri idarəetmə məntəqəsinə ötürməyə imkan verən məlumatların mübadilə sistemi ilə təchiz edilib. Uçuş aparatı yerüstü idarəetmə məntəqəsindən peyk vasitəsilə idarə olunur.

"Hermes 900" yüksək uçuş uzaqlığına malikdir və müşahidə aparmaq, havadan növbə çəkmək, kəşfiyyat aparmaq üçün təyin edilib. Bundan başqa bu aparat müvəffəqiyyətlə quru sərhədlərinin və dəniz akvatoriyalarının keşiyini çəkməyə qadirdir. Onunla 9000 metr hündürlüyə qədər uçuşu həyata keçirmək və 350 kiloqram çəkisində faydalı yükü daşımaq olar.

"Hermes 900" pilotsuz uçuş aparatı hazırda bir çox ölkələrdə istifadə olunur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Fuad CƏFƏROV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 264 Nüsxə 3525 |